**Mərkəzi və Şərqi Avropada Ali Məhkəmələrin sədrlərinin Konfransında qəbul edilmiş Hakimlərin Müstəqilliyinin Prinsiplərinə dair Bəyanat**

**Briuni, Xorvatiya**

**14 oktyabr 2015-ci il**

## PREAMBULA

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın hər kəsin mülki və ya cinayət işlərinə baxılması üçün səlahiyyətli, müstəqil və qərəzsiz məhkəməyə müraciət etmək hüququna təminat verdiyini nəzərə alaraq,

İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin hər kəsin qanun qarşısında bərabərliyinə və qanunla bərabər şəkildə müdafiə olunmasına təminat verdiyini nəzərə alaraq,

BMT-nin Cinayətkarlığın qarşısının alınması və hüquq pozuntusu törətmiş şəxslərlə rəftar üzrə Konqresinin hakimlərin (hakimlər birliyinin) müstəqilliyinə dövlət tərəfindən təminat verildiyini və ölkənin Konstitusiyasının və ya qanunlarının müddəalarında təsbit olduğunu müəyyən etdiyini nəzərə alaraq,

İnsan hüquqları üzrə Avropa Konvensiyasının onu imzalayan ölkələrin üzərinə öz səlahiyyətləri daxilində, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə ədalətli məhkəmə araşdırması hüququ da daxil olmaqla, hər kəsin yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq hüquqlarının və Konvensiyanın 1-ci Bölməsində nəzərdə tutulan digər hüquq və azadlıqların təmin olunması öhdəliyini qoyduğunu nəzərə alaraq,

Avropa Hakimlərinin Məşvərət Şurasının öz rəylərində hakimlərin müstəqilliyinin hakimlər birliyinin fəaliyyəti üçün başlıca şərt olduğunu təsdiq etdiyini nəzərə alaraq,

Qeyd olunan bütün hüquqların həmçinin digər regional hüquqi vasitələrlə və iştirakçı dövlətlərin Konstitusiyaları, qanunları, hüquqi həlli və qarşılıqlı anlaşması ilə müdafiə olunduğunu nəzərə alaraq,

Hakimlər birliyinin müstəqilliyinin onun üçün imtiyaz deyil, hər kəsin müstəqil məhkəmə araşdırması hüququndan irəli gələn vəzifə olduğunu nəzərə alaraq,

Bütün hüquqların həyata keçirilməsinin və qorunmasının səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmənin mövcudluğundan asılı olduğunu nəzərə alaraq,

Aşağıdakı prinsiplər həm dövlət hakimiyyətinin üç qolundan biri kimi ümumilikdə hakimlər birliyinin müstəqilliyinin, həm də fərdi olaraq hakimlərin müstəqilliyinə dair standartların müəyyən edilməsinə xidmət edir. Bu prinsiplər Mərkəzi və Şərqi Avropa Ali Məhkəmələri sədrlərinin Konfransının qanunun aliliyi ideyasına tam sadiqliyini nümayiş etdirir və hər bir hakim tərəfindən öz vəzifələrini yerinə yetirərkən həmin prinsipləri əldə rəhbər tutması, hakimlər birliyinin özünü tənzimləməsində vəsait kimi istifadə olunması, dövlət hakimiyyətinin üç qolu arasında səmərəli əməkdaşlıq üçün zəmin yaradılması, hakimlər birliyinə ictimai hörmətin möhkəmləndirilməsi və onun işinin pozitiv qiymətləndirilməsi məqsədilə hazırlanmışdır.

## HAKİMLƏRİN MÜSTƏQİLLİYİ

1. Hakimlər birliyi hər bir cəmiyyət üçün ən yüksək dəyərə malik olan təsisatlardan biridir.

2. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (10-cu maddə), Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (14-cü maddənin 1-ci bəndi) və İnsan Hüquqları üzrə Avropa Konvensiyası (6-cı maddənin 1-ci bəndi) hər kəsin, onun işinin qanun əsasında yaradılmış, səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə ədalətli və açıq araşdırılması hüququna təminat verir. Hakimlərin müstəqilliyi bu hüququn həyata keçirilməsi üçün zəruri şərtdir.

3. Hakimlərin müstəqilliyi prinsipi tələb edir ki:

a. Hakimlər işlərə hər hansı mənbədən birbaşa və ya dolayı təsirə məruz qalmadan, faktların qərəzsiz qiymətləndirilməsi və qanunun müddəaları əsasında baxmalıdırlar;
b. Müstəqillik həm bütövlükdə hakimlər birliyinə, həm də icraatına qəbul etdiyi istənilən işə münasibətdə fərdi olaraq hər bir hakimə aiddir;
c. Hakim qorxu hissi keçirərsə, yaxud bu və ya digər mənbədən hər hansı mənfəət gözləyərsə və ya qanunsuz təsirə məruz qalarsa, işə lazımi qaydada baxa bilməz.

4. Hüququn aliliyi prinsipinə riayət edən azad cəmiyyətdə hakimlərin müstəqilliyinin təmin edilməsi onların qarşıya qoyulmuş məqsədlərə çatmaları və funksiyalarını lazımınca yerinə yetirmələri üçün zəruridir.

a. Hakimlər cəmiyyətin məhkəməyə inamını möhkəmləndirmək məqsədilə hüquqi biliklər və məhkəmə etikası sahəsində yüksək standartlar nümayiş etdirməli və bu standartların qorunmasına çalışmalıdırlar - bu, hakimlərin müstəqilliyinin qorunması üçün prinsipial əhəmiyyət kəsb edir.
b. Qərəzsizlik və qərəzsizliyi nümayiş etdirmək hakim səlahiyyətlərinin lazımınca həyata keçirilməsi üçün başlıca şərtlərdir. Bu, təkcə qərarın özünə deyil, həm də qərarın qəbul edilməsi prosesinə aiddir.

5. Hakimlərin müstəqilliyi prinsipi dövlət tərəfindən təmin olunmalı və Konstitusiyada, ən yüksək hüquqi akt səviyyəsində təsbit olunmalıdır. Daha ətraflı tənzimləmə qanunvericilik səviyyəsində təsbit edilməlidir.
6. Dövlət qurumları hakimlərin vəzifə və funksiyalarına hörmətlə yanaşmalı, onların icrasına yardım göstərməlidirlər.

7. Təkbaşına və ya kollegial qaydada qərar qəbul edərkən hakimin işə 3-cü bəndin (a) yarımbəndinə uyğun baxmaq vəzifəsi həmin işə baxmayan digər hakimlərin, eyni ilə də, hakimlər birliyinin nümayəndəli (seçkili) orqanının, yaxud ədliyyə nazirliyinin, yaxud da digər dövlət qulluqçusunun və ya dövlət orqanının müdaxiləsi və ya təsiri ilə pozulmamalıdır. Bu prinsip məhkəmə qərarından digər məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır. Hakimlər öz funksiyalarını ölkənin konstitusiyasına və qanunlarına uyğun yerinə yetirməlidirlər. Dövlət hakimlərə qeyri-hüquqi vasitələrlə təsir etməyə cəhd edən şəxslərə qarşı sanksiyaların tətbiq edilməsi də daxil olmaqla, hakimlərin müstəqilliyinin qorunması üçün tədbir və prosedurları təmin etməlidir.

8. Hakimlər rəsmi fəaliyyətlərində və şəxsi həyatlarında nalayiq davranışa, yaxud bu cür görüntü yaradan davranışa yol verməməklə hakimlər birliyinin bütövlüyünü və müstəqilliyini qoruyur, ictimaiyyətin inamını qazanırlar.

9. Hakimlər birliyi üzvünün statusundan irəli gələn məhdudiyyətlər nəzərə alınmaqla, hakimlər, istənilən digər vətəndaşlar kimi özünü ifadə etmək və vicdan azadlığından, siyasi fəallıqdan çəkinməli olduğu hallar istisna edilməklə, sərbəst toplaşmaq və birləşmək azadlığından istifadə etmək hüququna malikdirlər.

10. Tətbiq edilməli olan qanunvericiliyin müddəaları nəzərə alınmaqla, hakimlər öz maraqlarını təmsil etmək və peşə təhsilinin mexanizmlərini təkmilləşdirmək, həmçinin öz müstəqilliyinin qorunması üçün digər zəruri tədbirlərin görülməsi məqsədilə hakimlər assosiasiyaları yarada və onlara daxil ola bilərlər.

## HAKİMLƏR BİRLİYİNİN VƏZİFƏLƏRİ

11. Hakimlər birliyinin vəzifə və funksiyalarına aşağıdakılar daxildir:

(a) müvafiq hakimlik funksiyaları çərçivəsində, qanuna əsaslanan cəmiyyətdə hüququn aliliyi prinsipinə uyğun olaraq bütün insanların təhlükəsiz yaşamasını təmin etmək;

(b) müvafiq hakimlik funksiyaları çərçivəsində insan hüquqlarına riayət edilməsinə və bu hüquqların həyata keçirilməsinə yardım etmək;

(c) fiziki və hüquqi şəxslər arasında, habelə bu şəxslərlə dövlət arasında olan münasibətlərdə qanunu qərəzsiz tətbiq etmək.

## HAKİM VƏZİFƏSİNƏ TƏYİN EDİLMƏ

12. Hakimlər birliyinin qarşıya qoyulmuş məqsədlərə çatması və öz funksiyalarını yerinə yetirməsi üçün hakimlərin, onların təsdiq olunmuş hazırlığına, şəxsiyyət tamlığına və müstəqilliyinə əsaslanan ləyaqəti nəzərə alınmaqla vəzifəyə təyin edilmələri zəruridir.

13. Hakimlərin vəzifəyə təyin edilməsi qaydası bu vəzifəyə daha uyğun olan şəxslərin təyin olunmasını təmin etməlidir. Yalnız hazırlıqlı, şəxsiyyət tamlığına malik və müstəqil namizədlərin hakim vəzifəsinə təyin olunmalarını təmin etmək üçün onların təyin olunma prosesinə lüzumsuz təsirləri istisna edən mexanizmlər mövcud olmalıdır.

14. Hakimlərin seçilməsində ayrı-ayrı şəxslərə qarşı onların irqinə, dərisinin rənginə, cinsinə, dini, siyasi və digər baxışlarına, milliyyətinə və mənşəyinə, ailə vəziyyətinə, cinsi oriyentasiyasına, əmlak və sosial vəziyyətinə əsaslanan ayrı-seçkilik yolverilməzdir. Hakim vəzifəsinə təyin edilən namizədin müvafiq dövlətin vətəndaşı olması tələbini nəzərdə tutan normalar ayrı-seçkilik normaları hesab edilmir.

15. Hakimlərin vəzifədə irəli çəkilmələri onların hazırlıqlı olmaları, şəxsiyyət tamlığı, müstəqilliyi və səriştəliliyi kimi amillərin obyektiv qiymətləndirilməsinə əsaslanmalıdır.

16. Hakimlərin seçilməsi, təyin edilməsi və vəzifədə irəli çəkilməsi prosesi şəffaf olmalıdır. Hakimlərin seçilməsi prosesinin şəffaflığının təmin edilməsi üçün seçki proseduru və seçimin obyektiv meyarları qanunla dəqiq müəyyən edilməlidir.

## VƏZİFƏDƏ QALMA

17. Hakimlərin vəzifədə qalmaları üçün təminatlar olmalıdır. Hakim vəzifəsində

qalmanın şərtləri qanunda aşkar şəkildə təsbit edilməlidir. Hakimlərin təyin edilmə prosesində sınaq müddətinin tətbiq edilməsi tövsiyə edilmir. Sınaq müddətinin qanunvericilikdə nəzərdə tutulduğu hallarda, onun tətbiqi mümkün qədər məhdudlaşdırılmalıdır. Sınaq müddətində olan hakim digər hakimlərlə bərabər müdafiəyə, imtiyazlara, toxunulmazlığa və şəxsi müstəqilliyə malik olmalıdır.

18. Müəyyən sahədə ədalət mühakiməsini həyata keçirən bütün hakimlərin müvafiq yaş həddinədək olan müddətə təyin edilmələri tövsiyə olunur.

19. Hakimin səlahiyyətlərinə vaxtından əvvəl yalnız onun öz arzusu ilə, habelə əmək qabiliyyətsizliyinin təsdiq olunduğu, cinayət törətdiyi və ya hakim vəzifəsi ilə bir araya sığmayan digər ciddi xəta törətdiyi hallarda xitam verilir. Hakimin qanunu tətbiq etməklə işə mahiyyəti üzrə vicdanla baxaraq qəbul etdiyi qərarın səhv olduğu, ictimaiyyət tərəfindən bəyənilmədiyi və ya dövlət tərəfindən narazılıqla qarşılandığı hallarda belə, bu, hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi üçün əsas ola bilməz. Qərarla razılaşmayanlar onu apellyasiya qaydasında mübahisələndirməyə çalışmalıdırlar.

20. Məhkəmə tərkibinə daxil olan hakim və ya hakimlər tərəfindən qəbul edilən qərarın səhv olması, cəmiyyətdə tanınmaması və ya dövlət tərəfindən narazılıqla qarşılanması həmin məhkəmə tərkibi sədrinin vəzifəsindən azad edilməsi üçün səbəb ola bilməz.

21. Hakimin səlahiyyətlərindən məhrum edilməsi prosedurunda bunun xalq səsverməsi yolu ilə baş verə bilməsi nəzərdə tutulmamışsa, səlahiyyətlərə xitam verilməsi hakimlər birliyinin nəzarəti altında həyata keçirilməlidir.

22. Hakim, onun hakim səlahiyyətlərindən məhrum edilməsi proseduruna hazırlıqlar barədə qabaqcadan məlumatlandırılmalıdır; həmin hakimin tam və ədalətli araşdırma hüququ təmin edilməlidir. Vəzifələrini kobud şəkildə pozduğu və ya qanunun tələblərinə bilərəkdən əməl etmədiyi hallar istisna edilməklə, hakim məhkəmə aktlarına görə intizam cəzasına məruz qala, yaxud hakim səlahiyyətlərindən məhrum edilə bilməz.

23. Qanunda hakimin iş fəaliyyətinin qiymətləndirilməsinin nəzərdə tutulduğu halda, belə qiymətləndirmə hakimlərin müstəqilliyi prinsipi nəzərə alınmaqla həyata keçirilməlidir. Hakimlərin qiymətləndirilməsi onların biliklərinin hansı sahələrdə artırılmasının zəruriliyini müəyyən etmək məqsədi ilə, yaxud vəzifədə irəli çəkilməli olan namizədləri müəyyən etmək üçün aparıla bilər. Qiymətləndirmə mexanizmindən sui-istifadə və bundan hakimin vəzifəsindən azad olunması üçün əsas kimi istifadə edilməsi yolverilməzdir.

24. Hakim səlahiyyətlərinin dayandırılması və ya bu səlahiyyətlərə vaxtından əvvəl

xitam verilməsi ilə bağlı hallar da daxil olmaqla, intizam xarakterli bütün araşdırmalar qabaqcadan müəyyən edilmiş hakim etikası standartlarına uyğun olaraq keçirilməli və şəffaf olmalıdır.

25. Hakim, onun razılığı olmadan məhkəmə idarəetməsi üçün məsul olan orqanlar tərəfindən bir yurisdiksiyadan digərinə keçirilə bilməz; bu, həmçinin hakimin yerinə yetirdiyi funksiyalara da aiddir. Belə yerdəyişmənin ədalət mühakiməsinin lazımi qaydada və vaxtında həyata keçirilməsinin təmin edilməsi üçün zəruri olduğu hallar istisna təşkil edir.

26. Məhkəmə idarəetməsi üçün məsul olan səlahiyyətli orqan hakimlər şurası və ya analoji orqandırsa, hakimlər belə şuranın və ya orqanın üzvlərinin əksəriyyətini təşkil etməlidirlər.

## HAKİMLƏRİN İŞ ŞƏRAİTİ

27. Hakimlər adekvat məvacib almalıdırlar; hakimlər üçün müvafiq iş şəraiti yarıdılmalıdır. Hakimlərin müvafiq təlim keçmələri təmin edilməlidir. Hakimlər hüququn aliliyinin cəmiyyət üçün əhəmiyyətini nümayiş etdirən iş otaqları və avadanlıqlarla təmin olunmalıdırlar. Məhkəmələr yetərli sayda hakimlər və müvafiq ixtisaslı köməkçi heyət ilə təmin edilməlidirlər. Hakimlərin məvaciblərinin məbləğinin azaldılmasının yolverilməzliyi qanunda xüsusi olaraq göstərilməlidir. Hakimlər əmək qabiliyyətini itirdikdə onlara ağlabatan məbləğdə müavinətlərin, həmçinin istefaya getdikdə pensiyanın ödənilməsi üçün təminatlar olmaladır. Pensiyanın məbləği hakimlərin işlədikləri dövrdə aldıqları məvacibin məbləğinə ağlabatan şəkildə uyğun olmalıdır. Səlahiyyətləri müddətində hakimlərin məvacibinin və iş şəraitinin səviyyəsi, iqtisadi şəraitin və ya büdcə imkanlarının qəflətən pisləşdiyi hallar istisna olmaqla, əvvəlki ilə müqayisədə pisləşdirilə bilməz.

28. Hakimlər mülki iddialardan, həmçinin hakim funksiyalarının icrası zamanı hüquqazidd hərəkət və ya hərəkətsizlik nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsinin zəruriliyindən toxunulmazlığa malik olmalıdırlar. Bu prinsip intizam icraatına tətbiq olunmur və milli qanunvericiliyə uyğun olaraq məhkəmə qərarından şikayət vermək və ya dövlətdən kompensasiya almaq hüququna təsir etmir. Hakim toxunulmazlıqdan məhrum edilmədən və ya onun özü toxunulmazlıqdan imtina etmədən cinayət məsuliyyətinə cəlb edilə bilməz. Lakin heç bir hakim qanundan üstün olmadığı üçün hər hansı cinayət əməlini törədərkən toxunulmazlıq hakimi müdafiə etmir.

## YURİSDİKSİYA

29. Hakimlər məhkəmə qaydasında həll oluna bilən istənilən məsələ üzrə yurisdiksiyaya malik olmalıdırlar. Bu və ya digər məsələni həll etməyə qanunla səlahiyyətli olub-olmadığını yalnız hakim müəyyən etməlidir.

## MƏHKƏMƏ İDARƏETMƏSİ

30. Məhkəmənin sədri konkret iş üzrə qəbul edilən qərarın mahiyyətinə təsir edə biləcək inzibati qərarlar qəbul etməkdə müstəsna səlahiyyətə malik olmalı deyil. İşlərin hakimlər arasında bölgüsü təsadüfi olmalı və ya müvafiq məhkəmənin hakimləri tərəfindən qabaqcadan müəyyən edilmiş dəqiq, obyektiv və şəffaf meyarlar əsasında həyata keçirilməlidir.

31. Hakimlərin təyinatı, onların fəaliyyəti üzərində nəzarət, inzibati və köməkçi heyətin üzərində intizam nəzarəti də daxil olmaqla, məhkəmə idarəetməsi üzrə əsas cavabdehlik hakimlərin, yaxud da hakimlərin çoxluq təşkil etdiyi və ya qərarına hakimlərin effektiv təsir edə bildiyi səlahiyyətli orqana məxsus olmalıdır.

32. Məhkəmələrin büdcəsi məhkəmələrin özləri və ya məhkəmələrlə əməkdaşlıq etməklə səlahiyyətli orqan tərəfindən işlənib hazırlanmalıdır. Bu iş hakimlərin müstəqilliyinin və məhkəmə idarəetməsinin təmin olunmasının zəruriliyi nəzərə alınmaqla aparılmalıdır. Ayrılmış vəsaitlər hakimlərin üzərinə ədalət mühakiməsinin tez və səmərəli şəkildə həyata keçirilməsinə mane olacaq qədər iş yükü qoyulmadan hər bir məhkəmənin fəaliyyət göstərməsi üçün yetərli olmalıdır.

## QANUNVERİCİLİK VƏ İCRA HAKİMİYYƏTİ İLƏ MÜNASİBƏTLƏR

33. Qanunvericilik və icra hakimiyyəti orqanlarının səlahiyyətlərindən (hakimin vəzifədə qalmasına təsir etmək, hakimlərin məvaciblərinin, iş şəraitlərinin səviyyəsini dəyişmək və s.) konkret hakimə və ya hakimlərə təhdid və ya təzyiq aləti kimi istifadə edilməməlidir.

34. İcra hakimiyyəti orqanlarının təmsilçiləri hakimlərə onların hakim səlahiyyətlərinin həyata keçirilməsinə təsir edə biləcək stimul və ya yararlanmalar təklif etməməli, hakimlər isə bu cür stimul və ya yararlanmaları qəbul etməməlidirlər.

35. İcra hakimiyyəti orqanları hakimlərin və onların ailə üzvlərinin təhlükəsizliyini və fiziki müdafiəsini hər zaman təmin etməlidirlər. Bu tədbirlərə təhdid və ya zorakılğın qurbanı olan və ya ola biləcək məhkəmələrin və hakimlərin müdafiəsi daxildir.

## RESURSLAR

36. Qanunvericilik və icra hakimiyyətləri məhkəmə hakimiyyətinin nüfuzuna hörmət etməli, hakimlərin qərarlarını şərh edərkən hakimlərin müstəqilliyinə ziyan vura və cəmiyyətin məhkəmə sisteminə olan etimadına xələl gətirə biləcək tənqidlərdən çəkinməlidirlər. Qanunvericilik və icra hakimiyyətləri məhkəmələrin qərarlarına hörmət etməli və məhkəmə qərarlarını yerinə yetirməyə onların hazır olduqlarını şübhə altına ala biləcək davranışdan çəkinməlidirlər. Qərardan şikayət vermək niyyətini ifadə edən bəyanatlar istisna təşkil edir.

37. Hakimlər və hakimlər birliyinin orqanları onların statusu və ümumilikdə məhkəmə sisteminin fəaliyyəti ilə bağlı qanunların hazırlanmasında fəal iştirak etmək hüququna malik olmalıdırlar. Qanunverici hakimiyyət hakimlərin statusu, məhkəmə idarəetməsi ilə bağlı qanun layihələrinə, habelə hakimlər birliyinə, onun müstəqilliyinə, yaxud vətəndaşların məhkəməyə müraciət etmək hüququna təsir edə biləcək digər qanun layihələrinə yalnız səlahiyyətli məhkəmə orqanlarının rəyini öyrəndikdən sonra baxmalıdır.

38. Hakimlərə onların öz fəaliyyətlərini həyata keçirmək üçün zəruri olan resursların verilməsi olduqca vacibdir. Dövlət hakimləri bu resurslarla təmin etməyə borcludur.

## KİV-LƏ ƏLAQƏLƏR

39. KİV və hakimlər birliyi bir-birilərini qarşılıqlı dəstəkləyir: məhkəmələr KİV-in təhqiqat aparmaq və məlumatı yaymaq hüquqlarını dəstəkləyir, KİV isə cəmiyyətin məhkəmələrə etimadının artmasında və dəstəklənməsində mühüm rol oynayır. Hakimlər birliyi etiraf edir ki, ictimaiyyətin məhkəmə qərarları barədə məlumat almaq hüququ, habelə hakimlərin cəmiyyət qarşısında cavabdehliyi məhkəmələrin fəaliyyətinin və hakimlərin davranışının KİV-də müvafiq işıqlandırılmasını zəruri edir. Bununla bağlı məhkəmə prosesləri qanunvericiliklə nəzərdə tutulan hallardan başqa açıq keçirilməlidir.

40. KİV hakimlərin müstəqilliyinə və qərəzsizliyinə hörmət və dəstək göstərməli, həmçinin nəzərə almalıdır ki, hakimlərə və məhkəmə qərarlarına ictimai dəstək hakim funksiyalarının həyata keçirilməsi üçün zəruridir və cəmiyyət üçün çox faydalıdır.

41. Hakimlərin, onların fikirlərinin və qəbul etdikləri məhkəmə aktlarının KİV-də tənqid edilməsi o şərtlə qəbuledilənd ir ki, bundan, müəyyən qərarın qəbul edilməsi üçün hakimə və ya hakimlərə təzyiq cəhdi kimi istifadə edilmir.

42. KİV hakimləri ədalətsiz və əsassız tənqid etməkdən çəkinməlidir. Hakimin ədalətsiz və ya əsassız tənqid edildiyi halda müvafiq cavabın verilməsi münasibdir. Lakin icraatında olan işlərlə bağlı hakimin açıq şərh verməsinə yol verilmədiyindən, müvafiq cavab məhkəmənin, hakimlər birliyinin, vəkillər kollegiyasının mətbuat katibi və hakimlər birliyinə aid olmayan digər subyektlər tərəfindən verilməlidir.

**Mərkəzi və Şərqi Avropada Ali Məhkəmələrin sədrlərinin Konfransında 14 oktyabr 2015-ci il tarixində qəbul edilmiş Hakimlərin Müstəqilliyinin Prinsiplərinə dair Briuni Bəyanatı**

| | |
|---|---|
| Cənab XHEZAİR ZAGANJORİ, Sədr | Albaniya |
| Cənab RAMİZ RZAYEV, Sədr | Azərbaycan |
| Xanım MEDDZİDA KRESO, Sədr | Bosniya və Herseqovina |
| Cənab BRANKO HRVATİN, Sədr | Xorvatiya |
| Cənab ROMAN FİALA, Sədr müavini | Çexiya Respublikası |
| Cənab PETER DARAK, Sədr | Macarıstan |
| Cənab AVDİ DİNA, Hakim | Kosovo |
| Cənab İVARS BİCKOVİCS, Sədr | Latviya |
| Cənab RİMVYDAS NORKUS, Sədr | Litva |
| Xanım LİDİJA NEDELKOVA, Sədr | Makedoniya |
| Xanım VESNA MEDENİCA, Sədr | Monteneqro |
| Cənab prof. LECH PAPRZYCKİ, Sədr | Polşa |
| Cənab PYOTR SERKOV, Sədrin birinci müavini | Rusiya Federasiyası |
| Xanım Daniela SVECOVA, Sədr | Slovakiya Respublikası |
| Xanım MAJA TRATNİK, Hakim | Sloveniya |
| Cənab YAROSLAV ROMANYUK, Sədr | Ukrayna |